





ПРАВИТЕЛЬСТВЕННАЯ
ТЕЛЕГРАММА

5/9

115/4

К/С ПЛИШКИНА

МОСКВА 2348 26 5 0555=

ПРАВИТЕЛЬСТВЕННАЯ БАКУ
НАРОДНОМУ АРТИСТУ СССР
ПРОФЕССОРУ БЮЛЬБЮЛЬ=

ПРИМИТЕ МОЙ ПРИВЕТ И БЛАГОДАРНОСТЬ КРАСНОЙ АРМИИ
ТОВАРИЩ БЮЛЬБЮЛЬ ЗА ВАШУ РАБОТУ О БРОНЕТАНКОВЫХ
СИЛАХ КРАСНОЙ АРМИИ=ИОСИФ СТАЛИН=

# BÜLBÜL
## BÖYÜK VƏTƏN MÜHARİBƏSİ İLLƏRİNDƏ

***Bülbülün Memorial muzeyinin fondunda Azərbaycan professional vokal sənətinin banisi, SSRİ xalq artisti, Stalin mükafatı laureatı, professor ictimai xadim Bülbülün Böyük Vətən müharibəsi illərindəki fəaliyyətindən - Qızıl Ordu hissələri, NKVD qoşunları və Hərbi Dəniz Donanması üzərində mədəni himayə sahəsindəki işinə görə fəxri fərmanlar, təşəkkürnamələr, arxa və ön cəbhələrdə göstərdiyi fəaliyyəti əks etdirən sənədlərin əsli saxlanılır.***

Bütün ömrü boyu Bülbül Sovet Ordusu ilə qırılmaz tellərlə bağlanıb. O, döyüşçülər qarşısında çıxış etməyi xoşlayır və onlar üçün məmnuniyyətlə oxuyurdu. Yalnız konsertlər vermirdi, həm də onların qarşısında hesabat verir, onlar üçün yaradıcılıq raporları təşkil edirdi. Məhz BVM illərində insanların qəhrəmanlığı və mənəvi dəyanəti aydın şəkildə üzə çıxırdı. İncəsənət xalqın mənəvi səfərbərliyində əzəmətli vasitəyə çevrilirdi. Bülbülün silahı onun sənəti idi. Hərbi hissə və hospitallarda, arxa və ön cəbhələrdə yüzlərlə konsert vermişdi. 1941-ci ilin iyul-avqust aylarında Bülbül çağırış məntəqələrində yığma qoşun hissələri qarşısında çıxış edir. 1941-ci ilin sentyabrında o, Azərbaycan Opera Teatrı ilə Qızıl Ordu hissələrində xidmət etmək üçün İrana gedir. 1942-ci ilin ağır iyul günlərində, faşistlərin Bakıya can atdığı bir vaxtda Bülbül Zaqafqaziya cəbhəsinin 44-cü ordusunda, 416-cı atıcı diviziyasında bədii-konsert briqadasının rəhbərləri olur.

Briqadanın tərkibinə S.Rüstəmov, Q.Pirimov, Ə.Ələkbərov, Z.Adıgözəlov, L.Bədirbəyli, S.Qədimova, Ə.Abdullayev daxil idi.

416-cı atıcı diviziyanın siyasi şöbəsi rəisinin SSRİ xalq artisti Bülbül Məmmədovun çıxışları haqqında 288 №-li rəyi:

"9 avqust 1943-cü il

Azərbaycan SSR XKS yanında incəsənət işləri üzrə idarə tərəfindən, batalyon komissarı R.Məcidovun siyasi şöbənin rəisi olduğu qoşun birləşməsinə mədəni xidmət üçün ezam olunmuş SSRİ xalq artisti Bülbül Məmmədov orada olduğu müddətdə döyüşçülər, komandirlər və siyasi işçilər qarşısında çıxış etmişdir.

Konsertlər son dərəcədə yaxşı təşkil olunmuş, yüksək bədii səviyyədə keçirilmişdir. SSRİ xalq artisti Bülbül Məmmədovun bədii kollektivə rəhbər-

liyini və çıxışlarını xüsusi qeyd etmək lazımdır.
Divizya hərbi komandiri, briqada komissarı"

Azərbaycan İncəsənət ustaları briqadasının rəhbəri Bülbül 1943-cü ilin avqust-sentyabr aylarında Bryansk cəbhəsinə yola düşdü. Bryanska yol Moskvadan keçirdi. O dövrdə Moskva qəzetləri yazırdı: "Moskvaya Bakıdan Azərbaycan incəsənət ustadlarından ibarət Bülbülün rəhbərliyi ilə briqada gəlib.Azərbaycanın əməkdar artisti Səltənət Quliyeva, Aşıq Bayram, G.Həsənova, V.Şirye, T.Dəmirov, F.Mehrəliyeva, V.Feldman və başqaları vardır. Onlar Moskvadan döyüşən orduya, döyüşçü və komandirlərə bədii xidmət üçün gedəcəklər. Artistlər döyüşçüləri qəhrəmanlıq mahnıları, odlu-alovlu sözlərlə ruhlandırırdılar. Bülbül özü həddindən artıq çox, aramsız oxuyur, bir hissəni bircə səhra hospitalını belə ötürmürdü. Yaralı döyüşçülər, zabitlər artistlərə ürək sözlərini bildirirdilər.

"Konsertlərinizi dinlədikcə ağrılarımızı unuduruq. Sizin simanızda doğmalarımızı görürük" və yaxud da 82, 222 və 217-ci atıcı diviziyaların, hospitalın zabitləri, Orlov istiqamətində hücum iştirakçılarının təşəkkürləri - SSRİ xalq artisti Bülbülün rəhbərliyi ilə keçən konsert bizim üçün böyük bayramdır. Uzaq Günəşli Azərbaycanın, ağ və qara qızıl diyarının, qəhrəman Bakının vətənpərvərlik mahnıları, şerlərdə ifadə olunmuş səsi bizə gəlib çıxdı.

**Yenə düşdün yadıma, sevgilim, nazlı dilbər,**
**Yanıram hicr odunda eşqinlə axşam, səhər.**
**İlqarından dönənə bizdə "dönük" deyirlər,**
**Mən sənə söz vermişəm, sevgilim, gözlə məni,**
**Ürəyimdə qalmasın nisgilim, gözlə məni.**

Xalq artisti Bülbülün ifasını xüsusi qeyd etmək istəyirik. Baş Leytenant Sosinski K. 1943-cü il.

Yuxarıda o misallar barədə bir neçə kəlmə demək istərdim. Bu misralar həmin şerdən idi ki, 1941-ci ildə "Kommunist" qəzetinin səhifələrində "cəbhə şerləri" rubrikası yaradılmışdır. Müharibədə həlak olmuş cavan şair A.Şirzadın şeri idi. Bu misralar vətəni müdafiəyə getmiş igidlərin ürək nisgilini ifadə edirdi. O misraları həyəcansız oxumaq olmazdı. O dövrdə gənc bəstəkar Süleyman Ələsgərov bu misralara mahnı yazır və utana-utana maestro Bülbülün evinə gəlir. Bülbül mahnını dinləyərək qeydlərini edir. Və artıq bir neçə gündən sonra həmin mahnını Bülbül radio ilə ifa edir. Əlbəttə ki, gənc bəstəkar S.Ələsgərovun "Gözlə məni" mahnısı Bülbülün ifası ilə həyata vəsiqə alır. Bülbül bu mahnını da çox rəngarəng və zəngin repertuarına daxil edir. Bülbül bu mahnını çox vaxt cəbhəyə gedən döyüşçülər qarşısında ifa edirdi.

General - mayor, Bryansk cəbhəsi Siyasi İdarəsinin rəisi Piqurnov cəbhədə mədəni xidmət göstərən - Bülbülün rəhbərliyi ilə gələn briqadanın işini çox yüksək qiymətləndirmişdir. "Briqadanın bütün çıxışları Hitler Almaniyasına qarşı azadlıq mübarizəsinə SSRİ xalqlarının böyük birliyi və qardaşlığı əks etdirən mitinqlərə çevrilirdi. Çətin səhra iş şəraitinə baxmayaraq, kollektiv onların qarşısına qoyulmuş vəzifələri əla yerinə yetirirdi. SSRİ xalq artisti Bülbülün iştirakı və rəhbərliyi altında 25 konsert verildi. Cəbhə hissələrində yaxşı bədii xidmət göstərdiklərinə görə onlara təşəkkür elan edirəm."

Amma onu da demək istəyirəm ki, briqadanın nəzərdə tutulmamış konsertləri də olurdu. Öz həmyerlilərini görəndə, azərbaycanlı döyüşçülər olan hissələrdə onlar öz təşəbbüslərilə konsertlər verirdilər. Cəbhəyə gedən göyüşçülərlə dolu qatarların birində Azərbaycan artistləri də var idi. Artistlərin orda olduğundan xəbər tutan döyüşçülər onlar üçün oxumağı xahiş etdilər. Əlbəttə vaqon şəraitində, müşayiətçisiz oxumaq narahat idi. Ancaq burada bunlar vacib deyildi, vacib o idi ki, bu auditoriya Bülbülün ifa etdiyi başqa auditoriyalardan fərqlənirdi. Burada vətən müdafiəçiləri onun dinləyicisi idi. Darısqal vaqonda mümkün olan qədər yer ayırdılar və Bülbül oxudu. Çox və həvəslə oxudu. Düşməni məğlub edən döyüşçülər haqqında, vətənə sonsuz məhəbbət, müqəddəs vətənpərvərlik, azadlıq və müstəqillik haqqında, vətəni qorumağa gedən oğluna xeyir-dua verən qoca ana haqqında oxudu. Qatar gedir, dayanır, yenə gedirdi, lakin vaqonda heç kim bunu hiss etmirdi. Vaqon öz həyatı ilə yaşayırdı, döyüşçülər isə incəsənətin bəxş etdiyi dəqiqələri yaşayırdılar.

Bülbülün mahnıları qarşıdakı döyüşlərə xeyir-dua kimi səsləndi.

Moskva qəzetlərinin birində vacib cəbhə xəbərləri ilə yanaşı bu sətirləri oxuyan briqada üzvləri riqqətə gəldilər. Qəzetdə bu sözlər yazılmışdı: "Başda SSRİ xalq artisti Bülbül olmaqla, cəbhədən gəlmiş konsert briqadası rəngarəng, maraqlı proqram göstərdi". Sonra briqada Moskvada alimlər evində, Qızıl Ordu evində, Tula şəhərində çoxlu konsertlər verdi.

Bryansk cəbhəsindən qayıdan artistlər briqadasına bakılılar da böyük maraq göstərdilər. Artistlərin də yerlilərinə danışmağa sözləri çox idi: Vətən müharibəsi qəhrəmanları ilə görüşlər, vətən müdafiəçilərinin can atdıqları böyük hücum arzusu, döyüşən ordunun döyüşçü və zabitlərinin onlara göstərdiyi mehriban münasibət və əlbəttə ki, Moskva haqqında söhbətlər.

"Bakinski raboçi" qəzeti yazırdı: "Oktyabrın 18-də Fizuli adına Ziyalılar evində Bakı ziyalılarının cəbhədən qayıtmış Azərbaycan artistlərinin konsert briqadası ilə görüşü oldu. İzdihamlı iclası əməkdar



incəsənət xadimi, şair Süleyman Rüstəm açdı.

Briqadanın rəhbəri, SSRİ xalq artisti Bülbül Bryansk cəbhəsi döyüşçüləri və zabitləri arasındakı çıxışları,Vətən müharibəsi qəhrəmanları ilə gözəl görüşləri barədə danışdı".


ПРАВИТЕЛЬСТВЕННАЯ ТЕЛЕГРАММА
ВЫСШАЯ ПРАВИТЕЛЬСТВЕННАЯ
БАКУ НАРОДНОМУ АРТИСТУ СОВЕТСКОГО СОЮЗА ПРОФЕССОРУ БЮЛЬ-БЮЛЬ МАМЕДОВУ
МОСКВА 1135 32 1 0231
БЛАГОДАРЮ ВАС ТОВАРИЩ МАМЕДОВ И ВАШУ ЖЕНУ ЗА ЗАБОТУ О СЕМЬЯХ ФРОНТОВИКОВ ПРИМИТЕ МОЙ ПРИВЕТ И БЛАГОДАРНОСТЬ КРАСНОЙ АРМИИ-И СТАЛИН

1943-cü ilin Qızıl Ordu hissələrinə mədəni xidmət göstərmək üçün Bülbülün İrana daha bir səfəri. Xalq artisti H.Rzayeva, Çarski, L.Bədirbəyli, H.Məmmədov, T.Əliyeva, X.Babayev, B.Atababayev bu səfərə onunla bərabər getmişdilər.

Müharibənin axır illərində Bülbül yalnız cəbhəyə, ön xəttə getməklə kifayətlənmirdi, həm də qəhrəman əməklərilə faşist qəsbkarları üzərində qələbəni yaxınlaşdıran arxa cəbhənin zəhmətkeşlərini ruhlandırırdı.

1944-cü ildə Bülbül Azərbaycan rayonlarına və Zaqafqaziya şəhərlərinə 3 aylıq səfərə çıxdı.

Eyni zamanda konservatoriyada dərs dediyi tələbələrin ehtiyaclarının imkan daxilində ödənilməsi, onlara atalıq qayğısı göstərməsi Bülbüldə adət halını almışdı. Çalışırdı ki, tez-tez onları evinə çağırsın. Və bunu da elə edərdi ki, guya özünü piss hiss edir, konservatoriyaya gələ bilməyəcək. Elə bu səbəbdən də çox vaxt Bülbül dərsləri - elə bu insanın nahar süfrəsi arxasında keçirdi.

Ağır müharibə illərində Opera Teatrı öz işini nəinki dayandırmırdı, hətta yeni tamaşalar da hazırlayırdı. Q.Qarayev və C.Hacıyevin "Vətən" operası müharibə illərinin canlı əks - sədası, onun igidlik pafosu idi. Bu operada Bülbül baş rolun - zabit, Sovet İttifaqı Qəhrəmanı Aslanın obrazını böyük müvəffəqiyyətlə ifa etmişdir.

İşinin çoxluğuna baxmayaraq, Bülbül 1943-cü ildə "Azərbaycan bəstəkarlarının vokal əsərləri BVM günlərində" məcmuəsini tərtib etdi.

Vətən üçün ağır olan bu günlərdə Bülbüldə "Hər şey cəbhə, hər şey qələbə üçün" - bu deviz altında yaşayır, Müdafiə Fonduna, Tank dəstəsi və cəbhəsi ailələrinin Yardım Fonduna şəxsi ehtiyatından 200 min manat pul köçürmüşdü.

Bu vətənpərvər qayğıya görə Ali Baş Komandan İ.Stalinin Bülbülə iki təşəkkür teleqramını diqqətinizə çatdırıram:

"Yoldaş Bülbül, Qızıl Ordunun zirehli tank qüvvələrinə qayğınıza görə mənim salamımı və minnətdarlığımı qəbul edin. İ.Stalin"

"Cəbhəçi ailələrinə göstərdiyiniz qayğı üçün, yoldaş Bülbül, Sizə, Sizin xanımınıza təşəkkür edirəm. Mənim salamımı və Qızıl Ordunun minnətdarlığını qəbul edin. İ.Stalin".

BVM-də Bülbülün əməyi iki medalla qeyd olunmuşdu:

"Qafqazın qəhrəman müdafiəsində iştirakı"

"Böyük Vətən Müharibəsi dövründə şərəfli və fədakar əməyə görə"

Mükafatlar, təltiflər Bülbülün həyatında, Bülbülün yaradıcılığında tükənmirdi. Hamısı onun üçün qiymətli idi. Vətən, xalq sevgisi. Amma o ağır məşəqqətli müharibə dövrünün mükafatları hər şeydən əziz idi.

Böyük Vətən Müharibəsində biz bilirdik ki, kimlə döyüşürük, düşmənimiz də məlum idi - Faşist Almaniyası. Bəs indi. Qardaş dediyimiz, sirdaş saydığımız, torpaqlarımızda sığınacaq verdiyimiz üzdəniraq qonşumuz. Bəlkə keçmişi yadlarına salmaq lazımdır.

Elə buradaca mən uzaqgörən dahi Bülbülümüzün sözlərini eynilə heç bir sözünə bəzək-düzək verməyərək sizə çatdırmaq istəyirəm - Azərbaycan xalqı.

Bülbül bu sözləri Xankəndinin tamaşa salonunda, o dövrün Şuşa rəhbərləri və eyni zamanda şəhərdən gələn vəzifə adamları qarşısında - 1961-ci ildə söyləmişdir:

"150 il bundan qabaq ermənilər İrandan Qarabağa köçəndə biz onları torpağımızın ən səfalı yerlərindən biri olan Xankəndində məskunlaşdırdıq. Azərbaycan xalqı böyük qonaqpərvərlik göstərib, onlara öz adət-ənənələrini, dadlı xörəklərini, gözəl musiqisini, qədim muğamlarını öyrədəcək bu torpaqda xoşbəxt və firavan yaşamalarına imkan yaratdı. Sonralar ermənilər Xankəndinin adını dəyişdirib Stepanakert qoydular, burada Azərbaycan Respublikasının hesabına gözəl evlər, məktəblər, bir çox mədəniyyət ocaqları və nəhayət, erməni

dram teatrının bu binasını tikdirdilər. Bu gün mən ilk dəfə bu teatrın binasına gələndə gördüm ki, onun yaraşıqlı foyesində Qarabağda anadan olmuş görkəmli yazıçıların və musiqiçilərin portretləri vurulmuşdur. Bu çox yaxşıdır ki, siz Qarabağın görkəmli adamlarının xatirəsini yad edirsiniz. Amma çox təəssüf ki, o xadimlərin arasında heç bir azərbaycanlının portreti yoxdur... Bəs hanı Qarabağın yetirdiyi Vaqifin, Xurşudbanu Natəvanın, Əbdürrəhim bəy Haqverdiyevin, Cabbar Qaryağdı oğlunun portretləri?

Biz həmişə dostluqdan, beynəlmiləlçilikdən danışırıq, amma bu gün şəhərə gələndə dördüm ki, küçələrdəki yazılar erməni və rus dillərindədir... Siz unutmamalısınız ki, bura Azərbaycanın şəhəridir."

Bu gün Dağlıq Qarabağın digər əraziləri kimi qədim tarixi, musiqi ənənələri, dünyaya bəxş etdiyi şəxsiyyətləri - görkəmli musiqişünas Mir Möhsün Nəvvab, tar ustası Sadıqcan, xanəndələr Əbdül Baqi, Şahnaz Abbas, məzarlar Azərbaycanın xalq konservatoriyası olan Şuşa da ermənilərin işğalı altındadır. Ermənilər Azərbaycanlılara məxsus yüzlərlə maddi mədəniyyət abidələrini məhv edib.

Bülbülün, Vaqifin, Natəvanın, Ü.Hacıbəyovun ev muzeylərinin, tarix - diyarşünaslıq muzeylərinin bir çox mədəniyyət, incəsənət, elm xadimlərinin abidələrini talan etmişlər. Bütün dünyaya car çəkib biz sivil xalqıq, bizim heç kəslə işimiz yoxdur deyə (mən onlara xalq deməzdim, abidələri güllə yağışına tutan xalqa xalq deməki olarmı?) bir sürü ac qurd özgə torpaqda meydan sulamaq istədilər. Və deyəsən bacardılar da axı...

Bülbül ruhu narahatdır - bəli, narahat olmasına səbəb var. Doğma diyarı, sevimli Qarabağı erməni işğalı altındadır.

***Amma bizim əziz Bülbülümüz, sənin ruhun qarşısında and içirik. And içirik ki, Qarabağımız, Şuşa qalamız işğaldan azad olacaq, doğma diyarımız çiçəklənib öz ağuşuna milyonlarla bülbül səsli gənclərimizi alıb onlara qol-qanad verəcək. Bir vaxtlar Sizə - balaca Murtuzaya Bülbül adı verib qanadlarınızı Simurq quşunun qanadlarına qovuşduraraq bütün dünyada pərvazlandırdığı kimi...***



**Rəhilə Bünyadova,**
**Bülbülün Memorial Muzeyinin elmi işçisi**